# TEATRDAN MUZEYƏ

*"Azərbaycan muzeyləri" kitabından*

1873-cü il martın 10-da Bakı şəhərində həvəskar aktyorlar M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasını tamaşaya qoymuşlar. Bundan bir qədər sonra, aprel ayında həvəskarlar ikinci tamaşanı - dramaturqun "Hacı Qara" komediyasını göstərmişlər. Hər iki tamaşa ədəbiyyat və mədəniyyət tariximizdə müstəsna xidmətləri olmuş Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun təşəbbüsü və iştirakı ilə hazırlanmışdır. Beləliklə də martın 10-u tariximizə peşəkar Azərbaycan teatrının yaradılması günü kimi daxil olmuşdur.

Azərbaycan teatrına, onun inkişaf yoluna aid materiallar, sənədlər müxtəlif muzeylərin müvafiq bölmə və guşələrində nümayiş etdirilir. Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinin ekspozisiyasında ayrı-ayrı dramaturqların əsərlərinin səhnə təcəssümünə aid eksponatlar da göstərilir. Mirzə Fətəli Axundovun, Üzeyir Hacıbəyovun, Səməd Vurğunun, Bülbülün, Cəfər Cabbarlının, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Abdulla Şaiqin, Nəriman Nərimanovun, Sabit Rəhmanın xatirə muzeylərində həmin sənətkarların teatrla bağlılığına aid materiallar da vardır.

Qax rayonunda Azərbaycan səhnəsinin görkəmli xadimi, SSRİ xalq artisti İsmayıl Dağıstanlının ev-muzeyi fəaliyyət göstərir.

Təbii ki, Azərbaycan teatrına aid kolleksiyaların qorunduğu və təbliğ olunduğu əsas məbəd Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyidir.

Azərbaycanda teatr muzeyinin ilk dəfə təşkili 1927-ci ilə təsadüf edir. Muzeyin yaradıcısı teatr tariximizin öyrənilməsində və təbliğində böyük əmək sərf etmiş Ağakərim Şərifov olmuşdur.

Bir sıra rəsmi sənədlərə, ayrı-ayrı sənət adamlarının xatirələrinə, şahidlərin dediklərinə istinadən teatr muzeyinin yaradılması tarixini izləyək.

1927-ci ildə teatr işçilərinin respublika müşavirəsində teatr tariximizə aid muzeyin yaradılması barədə məsələ qaldırılmış və elə həmin ildə Azərbaycan Dövlət Dram Teatrının binasında belə bir muzey təşkil olunmuşdur. Əslində bu, teatr tarixinə aid sərgi və gələcək muzeyin təməli idi. Şahidlərin xatırladığına görə, sərginin açılışı lentini kəsən böyük ədiblərimiz - Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyev belə demişlər: "Yaşasın Azərbaycan teatrı!"

Məhz həmin gündən bu muzey teatrı tarixinə və teatr xadimlərinə aid yadigarları, əlyazmaları, fotoşəkillər, rəsm əsərləri, müxtəlif sənədləri.. toplayan və qoruyan məbədə çevrilmişdir.

Sərgi tez bir zamanda Azərbaycan Dövlət Muzeyinin teatr şöbəsi kimi rəsmiləşdirilir. Bu zaman əşyaların əsas hissəsi Azərbaycan Dövlət Muzeyinə verilir, bəzi əşyalar isə teatrda saxlanılaraq sərgilərdə istifadə olunur. Nəhayət, 1934-cü ildə Azərbaycan Dövlət Muzeyinin müvafiq şöbəsinin bazasında Azərbaycan Dövlət Teatr Muzeyi yaradılır və Ağakərim Şərifov muzeyin direktoru təyin edilir.

1934-cü il noyabrın 24-də muzeyin təntənəli açılış mərasimi keçirilir. Mərasimdə o dövrün görkəmli sənət xadimləri - Bülbül, Şövkət Məmmədova, Hüseynqulu Sarabski, Aleksandr Tuqanov, Ülvi Rəcəb, İsmayıl Hidayətzadə və başqaları iştirak edirlər. Bu hadisə barədə "Pravda" qəzetinin 21 dekabr 1934-cü il tarixli sayında məlumat verilir.

1935-ci ildə muzeyə böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının adı verilir.

Bir şeyi də çox təəssüflə qeyd etmək lazım gəlir ki, bu muzey bağlanmış, yenidən təşkil olunmuş, dəfələrlə müxtəlif yerlərə, hətta yararsız sahələrə köçürülmüşdür.

Qarşımda bir arayış var. Uzun illər Azərbaycan Dövlət Teatr Muzeyinə rəhbərlik etmiş mərhum Turan Cavidin imzaladığı bu arayışı "Teatr muzeyinin köçürülmə tarixi" də adlandırmaq olar.

Buradan məlum olur ki, muzey 1940-cı ildə indiki Y.Məmmədəliyev küçəsində yerləşən Kənd Təsərrüfatı Muzeyinin binasına köçürülmüş, elə həmin ilin iyul ayında öz ünvanını yenidən dəyişməli olmuşdur. Muzey bu dəfə İncəsənət işləri idarəsini binasının I mərtəbəsində və zirzəmisində yerləşdirilmişdir. Normal şəraitin olmadığı həmin sahədə fədakar muzey işçiləri yeni ekspozisiya yarada bilmişlər. Lakin muzey burada da bənd almamış, 1941-ci ilin iyulunda

indiki Nizami adına Ədəbiyyat Muzeyinin binasının I mərtəbəsində iki otağa köçürülmüşdür. Həmin ilin dekabrında muzeyə bu binanın II mərtəbəsində beş ekspozisiya zalı ayrılmış və burada ekspozisiya yaradılmışdır.

1945-ci ilin sonlarında Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin açılışa hazırlanması ilə əlaqədar Teatr muzeyi yenidən öz ünvanını dəyişməli olmuş, bu dəfə İncəsənət işləri idarəsinin indiki T.Əliyarbəyov küçəsindəki binasına köçürülmüşdür. 1953-cü ildə həmin bina Mülki Müdafiə Qərargahına verilir və buna görə də Teatr muzeyi yenidən Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində yerləşdirilir. Burada muzey üçün ayrılmış otaqlar isə əşyaların normal mühafizəsi, habelə ekspozisiya yaradılması üçün əlverişli olmamışdır.

1963-cü ildə isə Azərbaycan Dövlət Teatr Muzeyi ləğv edilir və Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin Teatr və dramaturgiya şöbəsinə çevrilir.

Respublika hökuməti 1968-ci ildə həmin şöbənin bazasında "C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin təşkili haqqında" qərar qəbul etdi. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin binasının IV mərtəbəsindəki otaqlar yeni yaradılmış muzeyə verildi. Bu otaqlarda yalnız muzeyin fond əşyalarını və əməkdaşlarını yerləşdirmək mümkün oldu. Ekspozisiya olmadığına görə muzey əsasən toplama işi ilə məşğul oldu, müəssisə və təşkilatlarda səyyar sərgilər təşkil etdi. Lazımi bina şəraiti olmadığına görə uzun müddət teatr tariximizi əks etdirən dəyərli əşyalar işıq üzü görmədi, tamaşaçı kütləsinə çatdırılmadı. Bu isə təbii ki, geniş ictimaiyyətin, sənətsevərlərin, teatr xadimlərinin haqlı narazılığına səbəb olur, rəsmi və qeyri-rəsmi söhbətlərin mövzusuna çevrilir, mətbuatda bu barədə yazılar dərc olunurdu.

Azərbaycan Dövlət Teatr Muzeyinin həyatında ən şərəfli köçürülmə tarixi 1991-ci ildə baş verdi. Azərbaycanda muzey məqsədilə tikilmiş ilk və yeganə bina -keçmiş V.İ.Lenin Mərkəzi Muzeyi Bakı filialının binası Mədəniyyət Nazirliyinə verildikdən sonra burada "Muzey Mərkəzi" yaradıldı, Azərbaycan Xalçası Dövlət Muzeyi və Azərbaycan İstiqlal Muzeyi ilə yanaşı Dövlət Teatr Muzeyi də bu binada yerləşdirildi. Beləliklə də Azərbaycan teatrının tarixini əks etdirən zəngin ekspozisiya yaradıldı. Bu barədə bir qədər sonra. İndi isə bu muzeylə bağlı bəzi məqamları yada salaq.

1937-1938-ci illərin acı yelləri teatr xadimlərinin, habelə Dövlət Teatr Muzeyinin üstündən də əsib, milli teatrımızın inkişafına ağır zərbə vurub. Həmin illərdə bir sıra teatr xadimləri represiyaya məruz qalırlar. Bunların arasında Dövlət Teatr Muzeyinin direktoru Ağakərim Şərifovun qohumları da vardı. Ağakərim Şərifovun oğlu Azad Şərifov yazır: "...Bir qədər sonra atamı işdən götürdülər və on ay ailəmiz rahatlıq nə olduğunu bilmədi, gecələr gözümüzə yuxu getmirdi, gözləyirdik ki, indi - bu saat NKVD-nin "qara maşını" qapımızın ağzında dayanacaq. Ancaq, gözlənilmədən hadisələr başqa cür cərəyan etdi. Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin təhriki ilə atamı işə bərpa etdilər, hətta xəstəliyi ilə əlaqədar müalicə olunmaq üçün sanatoriyaya putyovka da verdilər. Lakin atamın son günləri idi, 1942-ci il fevralın 5-də, şaxtalı bir gündə atam dünyasını dəyişdi".

Məhz həmin illərdə muzeyin elmi işçisi Afərin Məmmədbəyova öz həyatını təhlükəyə qoyaraq repressiya qurbanlarının muzeydəki əşyalarını gizlətmiş, ələ keçməkdən qorumuş və beləliklə də həmin sənədlər bu günümüzə gəlib çatmışdır.

Muzey 1960-cı illərin əvvəllərində də hücuma məruz qalmışdır. "İzvestiya" qəzetinin 1 oktyabr 1963-cü il tarixli sayında mərkəzi orqanlarda məsul vəzifə daşıyan şəxsin imzası ilə "Mürgülü vəziyyətdə" sərlövhəli yazı dərc edilmişdi. Burada keçmiş SSRİ-də muzey işində mövcud problemlər araşdırılır, tənqidi münasibət bildirilirdi. Dövlət Teatr Muzeyinin ləğv edilməsi də həmin vaxtlara təsadüf etmişdir. Bu təsadüfdürmü? Həmin qəzetin 22 noyabr 1963-cü il tarixli sayında dərc edilmiş "Belə muzeylər lazım deyil" sərlövhəli yazıya nəzər yetirək (Qeyd etdiyimiz kimi, "Pravda" qəzeti 1934-cü ildə Azərbaycan Dövlət Teatr Muzeyinin açılmasını alqışlamışdı).

"Belə muzeylər lazım deyil" sərlövhəli yazının Azərbaycana həsr olunmuş hisssəsində oxuyuruq: " Azərbaycan Teatr Muzeyi, əgər bu sözü düzgün izah etsək, heç vaxt sənət məbədi olmamışdır. Əslində bu muzeyin mövcudluğuna ehtiyac da olmayıb. Axı, Bakıda Azərbaycan Tarixi Muzeyi, Nizami adına Ədəbiyyat Muzeyi və bu muzeylərdə mədəniyyət



şöbələri vardır. Azərbaycan teatrı tarixində maraq doğuran nə varsa, onları burada nümayiş etdirmək mümkündür. Kitablara gəldikdə isə, nə üçün kütləvi kitabxananın və ya Teatr İnstitutunun kitabxanasının incəsənət şöbəsinə verilməsin?"

Yazının müəllifləri öz mülahizələrini bu cür əsaslandırırlar: "Bu muzeyin işçiləri - direktoru və üç əməkdaşı faktiki olaraq kitabxanaçı vəzifəsini yerinə yetirirdilər. Muzeyin həmçinin fotoqrafı, rəssamı, mühasibi, təsərrüfat müdiri, mühafizəçisi, xadiməsi var idi."

Müəlliflər daha sonra yazırlar: "Bu yaxınlarda (1963-cü il nəzərdə tutulur -A.B.) respublika Mədəniyyət Nazirliyi bu işi qaydasına salmaq qərarına gəldi. Həmin muzey Ədəbiyyat muzeyinin Teatr sənəti şöbəsi hüququnda saxlanıldı. Nə dəyişdi ki? İndi direktor şöbə müdiri adlanır. İki elmi əməkdaşdan başqa, nəyə lazım olduğu bilinməyən ikinci bir ştat - laborant ştatı əlavə edildi. Rəssam ştatı da saxlanıldı."

Göründüyü kimi, Azərbaycan teatrı tarixini özündə əks etdirən muzeyin ləğv olunaraq başqa bir muzeyin şöbəsinə çevrilməsi, bir neçə ştatın saxlanılması yazı müəlliflərini qane etmir. Belə çıxır ki, teatr tarixinə aid materiallar ümumiyyətlə saxlanılmamalı və təbliğ olunmamalıdır. Buna görə də elmi işçi, fotoqraf və rəssam ştatlarına da ehtiyac yoxdur. Məqalə müəlliflərinin tələbi budur: "Boş muzey salonlarının dövlət vəsaitini necə udduqlarına, onların əməkdaşlarının isə yalnız qədim əşyaları qoruyub saxlayanların rolu ilə kifayətləndiklərinə kənar müşahidəçi kimi sakitcə dayanıb baxmaq olmaz".

Bütün bunlara baxmayaraq muzeyin müxtəlif nəsillərdən olan əməkdaşları Ağakərim Şərifovun başlamış olduğu bu xeyirxah işi hətta ən çətin vəziyyətlərdə belə ləyaqətlə davam etdirdilər. Artıq dünyalarını dəyişmiş Sabit Rəhman, Afərin Məmmədbəyova, Sona Cabbarlı, Ayişə Qasımova, Turan Cavid, habelə muzeyin indiki direktoru Nuridə Nurullayeva əsl fədakarlıq nümunəsi göstərmişlər. Məhz bunun nəticəsidir ki, C. Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi bu gün respublikamızın zəngin və qabaqcıl mədəniyyət ocaqlarından birinə çevrilmiş, burada 120 minədək əşya toplanmışdır.

Muzeyin ekspozisiyasında milli teatrımızın yarandığı gündən bu günümüzə qədər olan tarixi öz əksini tapmışdır. Ekspozisiyanın əvvəlində teatr elementlərini özündə yaşadan xalq oyunlarına aid rəsm əsərləri göstərilir. Elə burada Azərbaycan teatrını yaradanlar və inkişaf etdirən şəxsiyyətlər - M.F.Axundov, N.B.Vəzirov, H.B.Zərdabi, Ə.B.Haqverdiyev, C.Məmmədquluzadə, H.Ərəblinski, C.Zeynalov barədə məlumat verilir. Azərbaycan peşəkar teatrının ilk tamaşasının afişası, habelə sonralar ipək parça üzərində hazırlanmış afişalar və proqramlar xüsusi maraq doğurur.

Növbəti salonda Azərbaycan dramaturgiyasının Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, İlyas Əfəndiyev və başqa nümayəndələrinin yaradıcılığına nəzər salınır. Burada göstərilən eskiz və maketlər, fotoşəkillər, rəsm əsərləri həmin sənət xadimlərinin tamaşaya qoyulmuş əsərlərini əks etdirir.

Azərbaycan səhnəsinin unudulmaz simaları - Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mərziyyə Davudova, Mirzəağa Əliyev, Ülvi Rəcəb, Ələsgər Ələkbərov, Hökumə Qurbanova, habelə onların iştirakı ilə hazırlanmış tamaşalarla bağlı materiallar teatrımızın getdiyi inkişaf yolunu izləyir.

Daha sonrakı salonda Azərbaycan opera və balet sənətinə aid materiallar nümayiş etdirilir. Dahi bəstəkarımız Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşasının afişası, professional vokal sənətimizin banisi, SSRİ xalq artisti Bülbülün, SSRİ xalq artisti Şövkət Məmmədovanın səhnə fəaliyyətinə aid materiallar maraqla qarşılanır.

Muzeyin ekspozisiyasında Azərbaycan teatrının tarixi inkişaf mərhələləri, ayrı-ayrı əsərlər və tamaşalar, dramaturqlar, rejissorlar, rəssamlar, bəstəkarlar, aktyorlar barədə eksponatlar nümayiş etdirilir. Bu eksponatlar sırasında afişa və proqramlar, əlyazmaları, aktyorların rol dəftərləri, rəsm əsərləri, tamaşa geyimləri, fotoşəkillər, sənədlər, xatirə əşyaları və s. vardır. Bütün bunlar xronoloji ardıcıllıqla göstərilir.

Muzeydə həmçinin Musiqili Komediya, Gənc Tamaşaçılar, Kukla teatrları, habelə Azərbaycan Dövlət Rus Dram Teatrı və ayrı-ayrı bölgələrdə fəaliyyət göstərən teatrlar barədə materiallar toplanmışdır.

**Adilxan Bayramov,**
filologiya elmləri namizədi